Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!
DEMOKRATİK, MÜSTƏQİL QƏZET
BAKI XƏBƏR
10 MART 2010-CU İL
№305 (1803)
QİYMƏTİ: 40 QƏPİK
HƏFTƏDƏ 5 DƏFƏ ÇIXIR
www.baki-xeber.com



# Azərbaycanda dəmir yolu biletlərinin satışında rüsvayçı nüans çıxıb

*SV-yə bilet alan qadın kiminlə tək gedəcəyini əvvəlcədən bilmir*

## *«ELS» maraqlı təkliflər verdi*

**«ELS» Müstəqil Araşdırmalar Mərkəzi dəmir yolunda sərnişin daşıma sisteminin təkmilləşdirilməsi və qadınlar üçün ayrıca kupelərin təşkil olunması təklifilə çıxış edib. Mərkəzdən APA-ya bildirilib ki, son illər bir çox ölkədə sərnişinlərin cinsindən asılı olaraq kupelərdə ayrı yerləşdirilməsi tətbiq edilir.**

Azərbaycanda isə ictimai nəqliyyatın bütün növlərində kişi və qadınlar belə seçim imkanından məhrumdur. Bu isə onlar üçün səfərlər zamanı müəyyən problemlər yaradır: «Qatarlara biletlərin qeydiyyat və satışı elə təşkil olunub ki, bilet alınan zaman sərnişin yol yoldaşları haqqında ən lazımi və elementar məlumatı belə əldə etmək iqtidarında deyil. Sərnişin, xüsusən də qadınlar, yol yoldaşlarının kim olacağından asılı olaraq (kişi və yaxud qadın) kupeni seçmək istəsələr, kassirlər onlara heç bir köməklik göstərə bilməz, çünki onların istifadə etdiyi elektron proqramda biletləri almış sərnişinlər barədə məlumat yoxdur. Ona görə də biletin alınması kor-koranə baş verir. Nəticədə qadın kupedə üç kişi ilə birgə səfər etməli ola bilər. Bu, həm onun, həm də kişilərin özləri üçün müəyyən narahatlıqlar yaradır». Eyni problem SV vaqonlarının sərnişinləri üçün də yaranır: «Bu vaqona bilet alan qadın kiminlə kupedə təkbaşına qalacağını bilmir və çox vaxt bu, onun ailəsində ciddi müzakirə obyektinə çevrilir. Vaqonlarda isə tez-tez qadın sərnişinlərin axtarışı və yerlərin dəyişdirilməsinə səy göstərilməsi halları müşahidə olunur».

«ELS» sözügedən problemlə bağlı sərnişinlər arasında ekspress-sorğu da keçirib. Sorğuya cavab verən qadınların 92,4 faizi qadınlar üçün xüsusi kupelərin ayrılmasını dəstəkləyib, 3,1 faizi tək səyahət etmədiyini bildirib, 3,4 faizi cavab verməyə çətinlik çəkib, yalnız 1,1 faizi onlar üçün fərqi olmadığını bildirib. Sorğuya cavab verən kişilərin 76,4 faizi ayrı qadın kupelərinin təşkil edilməsini, 9,2 faizi isə kişi kupelərinin təşkilini təklif edib, 6,1 faizi vəziyyəti qiymətləndirə bilməyib, 8,3 faizi isə onun üçün heç bir fərq olmadığını söyləyib. Ayrı kupelərin təşkilinin zəruriliyini sorğuya cavab verənlər sərnişinin rahatlığı (53,2 faizi) və təhlükəsizliyi (16,1 faiz), milli adətlərimiz və islam dəyərlərinə uyğun olması (25,8 faizi) və başqa səbəblərlə əsaslandırıb.

Mərkəz Dəmir Yol İdarəsinin Sərnişin Daşıma İstehsalat Birliyinə də müraciət edərək, qadın kupelərinin təşkili məsələsinin gündəmdə olub-olmaması ilə maraqlanıb. Birlikdən bu məsələnin indiyədək müzakirə subyekti olmadığını və sərnişinlərin cinsilə bağlı qeydiyyatın aparılmasının nəzərdə tutulmadığını bildiriblər.